AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 3-11
https://doi.org/10.59849/2664-5432.2026.2.3

Nadir MƏMMƏDLİ*

MAHMUD KAŞĞARİNİN XƏRİTƏSİ VƏ AREAL DİLÇİLİK

XÜLASƏ

Areallıq dil hadisəsinin və ya bu cür hadisələr kompleksinin, dialekt, dilin və ya ümumi mənşəyinin, struktur oxşarlığı ilə əlaqəli dil qrupunun yayılma ərazisidir. Mahmud Kaşğari dil hadisələrinin areallarını müəyyən edərək məlum faktların müqayisəsi əsasında dil coğrafiyasının diaxron və sinxron aspektini əhatə edən dillərin qarşılıqlı əlaqələrini, dinamikasını öyrənmişdir. "Divan"da yer kürəsinə işarə olaraq dairə şəklində ilk tematik dünya xəritəsi təqdim edilir, etnolinqvistik tədqiqatlar aparılır: türk nəsilləri və tayfalarının məskunlaşdığı əraziləri, onların dilinin təmiz və qarışıq olmasının sosial-coğrafi xüsusiyyətlərini araşdırılır və türk dillərinin areal təsnifatı verilir, dil areallarının xüsusiyyətləri, onların yayılma sərhədləri, izoqlosların, dialektlərin, areal birləşmələrin dil təmasları müəyyənləşdirilir.

Açar sözlər: *dairəvi xəritə, türk tayfaları, arel dilçilik, izoqlos, coğrafi adlar,dil hadisələri.*

Mahmud Kaşğarinin yaşadığı dövrdə İslam ideyalarına əsaslanan humanitar elmlərin fəlsəfi prinsipləri formalaşırdı. "Divanü lüğat-it-türk"də də dövrün ümumi elmi bilik səviyyəsi, müxtəlif sahələrə və bölmələrə ayrılması prosesi əks olunur.

"Divan"da yer kürəsinə işarə olaraq dairə şəklində ilk tematik dünya xəritəsi təqdim edilir. Coğrafi xəritələr doktrinası VII-X əsrlərdə ərəb xilafətində formalaşmış, böyük səyyah – coğrafiyaşünaslar tərəfindən inkişaf etdirilmişdir. Mahmud Kaşğari klassik ərəb coğrafiyaşünaslıq məktəbinin zəngin təcrübəsindən, ənənələrindən istifadə etmişdir.

"Divan"da xəritənin dairəvi formada çəkilməsi göstərir ki, XI əsrdə türklər yerin bu formada olduğunu bilirdilər. Burada türk tayfaları və coğrafiyası haqqında vacib məlumatlar öz əksini tapır. Müasir kartoqrafik metodlarla müqayisədə ibtidai hesab edilə bilən bu xəritə XI əsrin coğrafi bilik və metodları ilə dünya kartoqrafiyasına öz töhfəsini vermişdir.

"Divan"a əlavə edilmiş dairəvi dünya xəritəsi kaşğarişünasların razılığa gələ bilmədikləri problemlərdən biridir. Xəritədə Avrasiyadakı yaşayış məntəqələri və

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru,filologiya elmləri doktoru, professor.
Email: nurlan1959@gmail.com

xalqlar göstərilmişdir. Bununla bağlı müxtəlif fikirlər vardır. Coğrafi xəritələr haqqında təlimin VII-X əsrlərdə ərəb xilafətində tanınmış səyahətçi-coğrafiyaşünaslar tərəfindən inkişaf etdirildiyi məlumdur. Mahmud Kaşğari bütün türk dünyasını qısa bir zamanda, təbii ki, gəzə bilməzdi. O, ərəb coğrafiyaçılarının klassik məktəbinin zəngin təcrübəsindən və ədəbiyyatından məharətlə istifadə etmişdir. "Unutmayaq ki, Mahmud Kaşğarinin coğrafi məlumatları iki başlıca qaynaqdan götürmüşdür: klassik coğrafi ədəbiyyatdan və birbaşa Mahmud Kaşğarinin özünün çoxillik səyahətlərindən" [Махрипов:1984].

V.U.Maxpirova görə, xəritənin tən ortasında türklərin siyasi mərkəzləri yerləşdirilmiş, orada Carkənd, Kaşğar, Barsqan, Balasaqun, Yafuk, İkioguz, Asbuali, Kumi və Talas kimi türk tayfalarının şəhərləri qeyd edilmişdir [Махрипов:1997]. Əgər ərəb kartoqrafları dünyanı simvolizə edən dairəvi xəritəni çəkərək ortasında Məkkəni göstərirdilərsə, Mahmud Kaşğari də bu nümunəyə uyğun olaraq, dairəvi xəritəsinin mərkəzində Qaraxanilər dövlətinin Kaşğar, Barsqan və Balasaqun kimi şəhərlərini göstərmişdir. Xəritənin qərbində qipçaqlar və karluqlar tərəfindən məskunlaşmış Rum, cənub-qərbdə – Efiopiya, şimalda – Hindistan, şərqdə – Çin və Yaponiya təsvir edilmişdir. Bu xərtə ilə Mahmud Kaşğari areal dilçiliyin əsasını qoymuşdur. M.Kaşğarini areal dilçilikdə xidmətini qeyd etmək üçün onun lüğəti ilə xəritə arasındakı əlaqəyə diqqət yetirmək lazımdır. Doğrudur, lüğət filoloji araşdırmalarda hərtərəfli öyrənilmişdir, lakin bu tədqiqatlarda xəritə ilə qarşılıqlı əlaqə fərqli şəkildə izah olunmuşdur. Xəritə haqqında geniş məlumatı ilk dəfə 1931-ci ildə alman şərqşünası İ.Markvart vermiş, K.Miller ərəbşünas G.Hensler ilə birlikdə oradakı yazıları oxumağa və almancaya tərcümə etməyə çalışmışlar. Sonrakı illərdə bu xəritəni A.Herman (1935), Ş.Ulkutasir (1946) və V.V.Bartold əsaslı şəkildə öyrənmişlər. Əvvəlki tədqiqatlara əsaslanaraq İ.İ.Umnyakov xəritədəki toponimləri rus dilinə uğurla tərcümə etmiş və bununla da kaşğarişünaslığa yeni töhfə vermişdir. Tədqiqatına əsasən, "Divan"da adı çəkilən bütün türk tayfaları xəritədə öz əksini tapmışdır [Умняков:1940, s.103-132]. Akademik İ.Y.Kraçkovski yazırdı ki, Mahmud Kaşğarinin "Divanü lügat-it-türk" əsəri təkcə coğrafiya yox, dilçilik baxımından xüsusi əhəmiyyətə malikdir [Крачковский:1957]. A.M. Şerbak qeyd edir ki, Mahmud Kaşğarinin "Divan"ı misilsizdir... o, türk qrammatikasına, lüğətinə, fonetikasına, tayfaların yerləşdirilməsinə, coğrafi və digər məlumatlara dair geniş linqvistik məlumatları əhatə edir [Щербак:1961, s.29]. H.Həsənova görə də "Divan" XI əsrin Mərkəzi Asiya və Qərbi Çin mədəniyyətinin, məişətinin, təsərrüfatının, dilinin və coğrafiyasının zəngin ensiklopediyası, M.Kaşğari isə Mərkəzi Asiyanın görkəmli bölgəşünası, coğrafiyaçısı, terminoloqu və kartoqrafıdır [Хасанов:1967, s.35].

Mahmud Kaşğari "Divan"ın girişində lüğətdə məqsədyönlü şəkildə etnolinqvistik tədqiqatlar apardığını yazır: "Bu kitabı hikmətli söz, səc, məsəl, şeir, rəcəz və nəsr ilə bəzəyib əlifba sırası ilə tərtib etdim. Onu arayan öz yerində tapsın və onu öyrənmək istəyən öz qaydası ilə öyrənsin deyə, sözlərin əslini, kökünü aydınlaşdırdım, onların qatılıqlarını yumşaltdım; onları yerli-yerində yerləşdirincə,

şübhəli sözlərdən ayırd edincə illərlə zəhmətə qatlaşdım" [Kaşğari: 2024, s.78]. Və ya: "Tayfaların pis və yaxşı günlərini təsvir edən atadan, babadan qalma və ağızdan-ağıza nəql edilmiş atalar sözü yerində işlədilən hikmətli məsəlləri, çox işlənən məşhur sözləri cəm etməklə əsər qayət lətif və gözəl bir şəkil aldı" [Kaşğari: 2024, s.80-81]. Xəritəni tərtib edərkən türk nəsilləri və tayfalarının məskunlaşdığı əraziləri, onların dilinin təmiz və qarışıq olmasının sosial-coğrafi xüsusiyyətlərini araşdırmış və türk dillərinin areal təsnifatını vermişdir [Егеубай:1997, s.17]. Müasir areal dilçiliyin nəzəri əsasları XX əsrin əvvəllərində C.Bertoni və M.Bartoli tərəfindən yaradlımış, onu "məkan dilçiliyi" adlandırmış və ilkin qaydalarını, prinsip və metodlarını, üsullarını əsaslandırmışlar. Areal dilçilik terminini ilk dəfə fransız dilçisi J.Gillieron işlətmiş və onun areal üsullarını yaratmışdır: dilin və dil hadisələrinin yayılma sahələrini, sərhədlərini, dialektlərin qarşılıqlı əlaqə problemlərini nəzərdən keçirmişdir. Dil areallarının xüsusiyyətləri və onların yayılma sərhədləri, izoqlosların, dialektlərin, areal birləşmələrinin dil təmaslarının müəyyənləşdirilməsi, ayrı-ayrı dil və ya dil qruplarının yayılma problemləri və s. areal dilçiliyin vəzifələrinə aiddir. Areal dilçiliyin konkret terminləri izofon, izoleks, izosem, izoqlosları müəyyən etmək üçün müqayisəli-genetik metodların istifadəsi və uzunmüddətli dil əlaqələri nəticəsində qeyri-əlaqəli dillərdə yaranmış konvergensiyadır. Uzun müddətli dillərin dil əlaqələri nəticəsində yaranan konvergensiya – izogloslar üçün tipoloji analiz XX1-ci əsr dilçiliyinin payına düşmüşdür. Dilçiliyin qəbul etdiyi coğrafi və ya areal prinsipə görə, Mahmud Kaşğarinin "Divan"ında dillərin təsnifatı verilmişdir. Məsələn: "Oğuz. Türklərdən bir qəbilədir; türkmənlər bunlardandır. Onlar iyirmi iki boydur. Hər boyun heyvanları üzərində damğa və nişan vardır" [Kaşğari: 2024, s.120] və s. O, peçeneqlər, kumanlar, oğuzlar, yimek, başqurt, basmil, qay, yabaku, tatar və qırğız tayfalarını, ayrı-ayrılıqda isə çigil, tuxsi, yağma, ığraq, jaruq, jomul (cumul), uyğur, tanqut və Çin tayfalarını xəritədə yerləşdirir, həmçinin eyni arealdakı qeyri-türk dillərinin izoqloslarını göstərir

Dilçilikdə qəbul edilmiş dillərin coğrafi və ya ərazi prinsipinə görə təsnifatını ilk dəfə "Divan"da görmək olar. M.Kaşğarinin areal dilçiliklə əlaqəli əsərini araşdıran tədqiqatçılar birmənalı olaraq bildirirlər ki, İslam tarixində coğrafiyaya aid materiallar heç vaxt dilçilikdə istifadə edilməmiş, M.Kaşğari bunu dairəvi formada çəkdiyi xəritədə ilk dəfə dünyada türk tayfalarının harada və necə yerləşdiyini göstərmişdir [Досмухамедулы: 1998, s.155-162]. Məsələn, XI əsrdə. qıpçaq, oğuz tayfaları böyük bir ərazini işğal etdilər. Qədim dövrlərdə Qərb kimaklarının bir hissəsi olan Şərq qıpçaqları köçəri oğuz və peçeneq tayfalarının şimalında məskunlaşırdı. Oğuz tayfalarının qərbə doğru irəliləməsi səbəbindən qıpçaqlar Sır Dəryanın aşağı axınından Şərqə – İrtışa qədər ərazidə məskunlaşdılar. X–XI əsrlərdə oğuz, o cümlədən səlcuq və türkmən tayfaları geniş bir ərazidə məskunlaşmışlar. Oğuz tayfalarının əsas hissəsi Sır Dəryanın aşağı axarından Aral dənizinə qədər və Xarəzm, Amur Dəryanın aşağı axarı, Xəzər dənizinə qədər olan ərazilərə köç edirdilər. XI əsrdə qıpçaq tayfaları da oğuzlar kimi geniş bir əraziyə

yayılmışlar. Qədim dövrlərdə şərqi qıpçaqların əsas hissəsi qərbi kimak, oğuz və peçeneq tayfalarının şimalında yerləşirdilər. Oğuz tayfaları qərbə doğru irəlilədikdən sonra qıpçaqlar Sır Dəryanın aşağı axarından şərqdə İrtışa qədər olan ərazilərdə məskunlaşdılar. Karluk tayfaları Semireçye bölgəsində, İrtış boyunca yerləşmiş, Tarbağatay dağlarını keçərək qərbə, İssık-Kul gölünün cənubuna, Narından Çu çayına qədər irəliləmişdilər. Arğu tayfaları isə İspicab və Balasaqun arasında, yəni Talas və Çu çaylarının axarları boyunca məskunlaşırdılar. Arğu tayfaları yarımköçəri idi. Mahmud Kaşğari əsərində qəbilələrin yayılma arealını təsvir etməklə yanaşı, dil xüsusiyyətlərini də göstər və bu dil təzahürlərinin ortaya çıxmasının izahlarını da verir [Elektron resurs: https://www.researchgate. net/ publication/318074496]. Məsələn, "Feillərdən düzəldilmiş isimlər (feili sifətlər) barəsində " bölümündə yazır: "Xaqani türkləri ilə başqalarının dilləri arasında və ğuz türkmənləri ilə başqalarının dilləri arasında olan bu dialektik fərq dəyişməyən və həmişə davam edən bir qaydadır ki, gələcəkdə, əziz və böyük Allah istərsə, öz yerlərində göstəriləcəkdir" [Kaşğari: 2024,s.86].

Xəritənin əsas məqsədi türk dünyası tayfalarının ləhcə atlasını vermək, dil xüsusiyyətlərinin paylaşmasını göstərmək və istənilən türk dili haqqında fikir yaratmaq idi. Dövrün elmi biliklərinin ümumi səviyyəsi təbii olaraq bu xəritədə öz əksini tapmışdır.

Xəritə, İslamla sıx vizual əlaqəsini nəzərə alsaq, mövcud olan ən erkən əlyazma reproduksiyalarından biridir, Bəlx məktəbinin xəritələrindən əhəmiyyətli dərəcədə fərqlənir. Burada Avroasiyanın hər hansı bir hissəsinin sahil xətti göstərilir və bölgələr arasında aydın bir məkan əlaqəsi izlənilir. Kaşğari rənglərlə fərqlənən unikal vizual dil işarələrindən istifadə edərək coğrafi məlumatları əhatə edir.

Xəritədə türk, həmçinin qarşılıqlı əlaqədə olan qeyri-türk xalqlarının yerləşməsi, adları, Çin səddi də daxil olmaqla vəhşi təbiət və yaşayış yerləri, həddindən artıq soyuq və ya istilik səbəbindən yararsız ərazilər göstərilir. Lakin çayların, göllərin və s.yerləşməsində bəzi yanlışlıqlar vardır. Q.Q.Musabayev də bildirir ki, xəritədə meridianlar dəqiq göstərilmədiyi üçün bəzi çaylar, göllər və digər coğrafi obyektlərin yerləşdirilməsində sapmalar vardır [Хасанов:1967, s.48]. Ehtimal var ki, "Divan"ın üzünü köçürən Məhəmməd ibn əbi Bəkr əs-Savə dövrünün sxematik xəritələrdən istifadə edərək türklərin siyasi mərkəzlərini qeyd etmiş, şəraitə uyğunlaşdırmaq üçün bəzi əlavələr etmişdir.

Xəritədə türk hökmdarlarının iqamətgahı olan Balasaqun yaxınlığında yerləşən M.Kaşğarinin atasının şəhəri Barsğan və dövrün əhəmiyyətli mədəniyyət ocağı olan Kaşğar mərkəz olaraq qəbul edilmişdir. Barsğan yaxınlığında göstərilən, lakin adı çəkilməyən İssık-kul gölüdür. Digər türk şəhərləri və əraziləri bu şəhərə görə düzülmüş və istiqamətlər Orxon kitabələrindəki qədim türk adətlərinə görə təyin edilmişdir. Türklərin yaşadığı ərazilərdəki şəhərlər, dağlar, səhralar, çaylar və dənizlər, Şərq, Qərb, Şimal və Cənub istiqamətləri müxtəlif rənglərlə göstərilir.

Xəritədə 6 çay (onların bəzisi vadisinin adına əsasən məlum olur), iki dağ, bir dəniz adı verilir.

Dəniz (yaşıl rəngdə): Bəhri-Abisgun;

Çaylar (mavi): Ceyhun, Seyhun, İla (vadisi), İrtış (vadisi), Yəmar (vadisi), İtil (vadisi);

Dağlar (qırmızı): Qaraçuq, Sərəndib;

Səhralar (sarı): səhralar adla deyil, ümumi olaraq "qumluq" şəklində göstərilmişdir.

Türklərin yaşadığı ərazilər: oğuz torpağı və məskənləri, qıpçaq, başqırd çölləri, Xarəzm, Azərbaycan adları ilə xəritənin əsas mərkəz hissəsindədir. Xəritədə çay və dağların adları çiçəklərlə göstərilir. Burada Böyük Çin səddi, dağıdılmış Kumluk bölgəsi, vəhşi heyvanlar və ibtidai insanların yaşadığı torpaqlar, şimal-qərbdə şiddətli soyuq hava səbəbindən məskunlaşmayan ərazilər də yer almış, türk yaşayış məntəqələrindən savayı eyni bölgədəki qonşu ölkələr və icmaların da adı çəkilmişdir.

Xəritədə Şərqi Asiyadan İspaniyayadək islam dünyasının əsas ölkələrinin adları verilmişdir:

1. Bolqarıstan (ehtimal ki, müasir Bolqarıstan); 2. Xəzər dənizi; 3. Rusiya; 4. İsgəndəriyyə; 5. Misir; 6. Daşkənd; 7. Yaponiya (yaşıl yarım dairə ilə əhatə olunmuşdur); 8. Çin (qərbdə su ilə əhatə olunmuşdur); 9. Balasaqun (indi Qırğızıstanda); 10. Kaşğar; 11. Səmərqənd; 12. İraq; 13. Azərbaycan; 14. Yəmən; 15. Şərqi Somali; 16. Şərqi Səhra; 17. Efiopiya; 18. Şimali Somali; 19. Hindustan; 20. Seylon (Cəbəl Sərəndib); 21. Kəşmir; 22. Qoq və Maqoq (Bibliyada əfsanəvi torpaq); 23. Dünyanı əhatə edən dəniz; 24. Şri-Lanka; 25. Benqal körfəzi; 26. Aral dənizi; 27. Sır Dərya, Amu Dərya; 28. İtil (Volqa); 29. Qaraqum səhrası.

Digər yerlər: Cabarqa, Cafu, Bəldətül-Ələviyyə, Ünas-kəsirə minət-türk, Beşbalıq, Canbalıq, Xatun sini, Biladu-Uyğur, Sülmi, Qoço, Maçin, Ardu-kəlim kuşan, Bəldeyi-Nəsa, Çömül məskəni, Ötükən, Qayaqı-Yəmak (Yəmak qayalıqları, bozqırı), Qay məskəni, Qayaqı-Başqırt, Qayaqı-Basmil, Qayaqı-Tataq, Bulğar, Bəldeyi-Saqal-muhdəsə, Qıfçaq və ğuz məskəni, Biladül-ğuziyyə, Suvar, Nəsnaslar yaşadığı söylənən qayalıqlar, Vəhşilərin məkanı, soyuq olduğu üçün bəşər yaşamayan yer, Qıpçaq məskəni, Çənd, Manqışlağ, Rus, Saqaliba, Vərənk, Əməc, Bəçənək, Dərbəndi-Xəzaran, Təbəristan, Xarəzm, Diyari-Dəyalimə, Ardu-Azərabadagan, Ardul-Əkrad (Ərzul-Əkrad – Kürd torpağı), Arduş-Şam, Hüdudu-Misir, İskəndəriyyə, Ardu-Xorasan, Ardul-İraqeyn, Ardul-Hicaz, Ardul-Qeyrəvan və ğeyrihə, Ərzail-Məğaribə və Əndəlus (Məğrib ölkəsi olan Əndəlus), Hədsiz isti olduğundan insan yaşamayan yerlər, Biladi-Fars, Biladi-Xuzistan, Biladi-Sicistan, Biladi-Kirman, Ardul-Yəmən, Diyari-Zənc, Biladi-Həbəşiyyə, Biladi-Zat, Biladi-Bərbər, Biladi-Sin, Biladi-Hind, Sərəndib, Adəm əleyhissəlamın ayaq basdığı yer, Səddi-Zülqərneyn, Ardu-Yəcuc Məcuc, Şaş, İsbəncab, Kümi Talas, İkki Öküz, Yafınc, Nəzil, Təraz, Balasağun, Barsğan, Koca, Barman, Uc, Qoçinkar başi,

Şancu, Cürcan, Xotən, Yarkəng, Kaşğar, Özçənd, Marginan, Xocənd, Səmərqənd, Qışmir, Kaşan, Biladi-Sind, Ğəznə və s.

Tədqiqatçılar xəritədəki bəzi yazıları fərqli şəkildə oxuyurlar. Məsələn, xəritənin şimal-qərb hissəsinin kənarındakı yazını İ.İ.Umyakov kimi *əl-məcus* şərh edir, "bütpərəst, kafir" kimi tərcümə edir [Умняков:1940, s.103]. H.Həsənov isə bu sözün Macarıstan torpağına işarə olunduğunu qeyd edir və onu *əl-məcar* oxuyur [Caferoğlu: 1970, s.33].

Yaponiyanı dünya xəritəsində göstərən ilk şəxs M.Kaşğaridir, bu əsərinin əhəmiyyətini daha da artırır. Tədqiqatçılar Caparqa və Yaponiyanın eyni ölkənin adları olduğu qənaətinə gəlir, XIII əsrdə Marko Polodan əvvəl ilk dəfə XI əsrdə Mahmud Kaşğari tərəfindən aşkarlandığını qeyd edirlər. M.Kaşğari "Divan"da Yaponiyanın Şərqdə Çabarqa adlı bir ada olduğunu söyləyir: "Hər tayfanın dilini ayrıca göstərirəm; lakin, uzaqlığı və Maçin ilə aralarındakı böyük dənizin olması üzündən, Çabarqa xalqının dili naməlumdur" [Kaşğari: 2024,s.95]. Tarixi mənbələrə əsasən, Yaponiyanın ikinci xəritəsi "Divan"dan dörd əsr sonra çəkilmişdir.

Xəritədə Azərbaycan və qonşuları barədə verilən göstəricilər ərəb ənənələrinə əsaslanmışdır. Əhməd Cəfəroğlu xəritəyə isnad edərək yazırdı ki, üzərində çox az hiss edilən ərəb xəritəçiliyi təsirinə rəğmən Kaşğari xəritəsinin bir türk əsəri olmasına qətiyyən şübhə edilə bilməz [Caferoğlu: 1970, s.33]. M.Kaşğari Azərbaycan haqqında xüsusi bir məlumat verməsə də, xəritədə bu ərazi qeyri-türklər yaşayan ərazilərdə göstərilməmişdir. V.U.Maxripovun fkrincə, Azərbaycanın türklüklə bağlılığı Mahmud Kaşğariyə bəlli imiş.

Mahmud Kaşğari xəritədə Azərbaycanı ərze-Azzərabadeqan adlandırır, qırmızı xətlə verdiyi hüdudları daha çox çağdaş Güney Azərbaycana uyğun gəlir. Dərbənde-Xəzəran ("Xəzər Dərbəndi") şəhərindən başqa Quzey Azərbaycana aid heç nə verilməmişdir. H.Zərinəzadə və Z.Bünyadovun mənbələrdən verdikləri məlumata görə, Azərbaycanın hüdudları bəzən Qəzvinlə Dərbənd, Qəzvinlə Araz çayı, gah Arazla Dərbənd, Miyana ilə Şirvan [Zərinəzadə.:1962, s.8], gah da Bərdə ilə Zəncan, yaxud Həmədan ilə Dərbənd arasındakı yerlər [Bünyatov:2007] kimi qeyd edilir. "Dərbənd şəhərinin nisbətən uzaqda verilməsi göstərir ki, Mahmud Kaşğari xəritəsində də Azərbaycanın quzey hüdudu təxminən Araz çayına qədərdir" [Rəhimoğlu: 2022, s.89]. "Divan"da ümumiyyətlə ərazi, dövlət kimi İranın adı çəkilmir. Şübhəsiz ki, bu çox mətləblərdən xəbər verir.

Mahmud Kaşğari bir sıra coğrafi adların linqvistik analizini aparır, tədqiqatında onomastikaya xüsusi diqqət yetirir və adların etimologiyasını açmağa çalışır. Bu da "Divan"ın ilk areal dilçilik işi olduğuna bir sübutdur. Məsələn:

Ügüz. Fürat (Fərat) və Ceyhun kimi hər hansı bir çaya verilən ad. Bu söz yalnız söyləndiyi zaman oğuzlara görə "بَنَاكِتْ Banakit" adlanan çay anlaşılır*; bunların şəhərləri bu çay üzərindədir. Köçəriləri bunun hər iki tərəfinə

* Ərəbcə tərcüməsi aşağıdakı şəkildədir: "Bu söz oğuzcada "Banakit" adlanan vadinin üzərində yerləşən" deməkdir (bax: Kilisli nəşri, s.58).

yerləşmişlər. Türk ölkələrində bir çox çaylar vardır ki, bu adla adlanır. Bu səbəbdən sərhəddə olan bir şəhər “ اِيكِي اُوكُوزْ İki ügüz” adlanmışdır; bu şəhər “İla” çayı ilə “Yafın” arasındadır.

Aluş. Kaşğarda bir kəndin adıdır.

Ala. Fərqanə yaxınlığında olan bir yaylağın adıdır.

Uyğur. Beş şəhərdən ibarət olan bir vilayət adıdır. Onu Zülqərneyn türk padşahı ilə sülh etdiyi zaman bina etmişdir. Nizamüddin İsrafil Toğan “Tekin-ibnü Mühəmməd Çağır Tunqaxan atasından eşitdiyini mənə xəbər verdi. Atası demiş: “Zülqərneyn Uyğur vilayəti yaxınlığına yetişdiyi zaman, türk xaqanı onun yanına dörd min adam göndərdi ki, bunların papaqlarının hər iki yanında şahin qanadı kimi qanadlar vardı. Bunlar oxu həm qabağa, həm də dala ata bilirdilər.”

Zülqərneyn bunlardan heyrətə düşərək:

“اِينَان خوذْ خورَنْدْ İnan xodz xorənd” dedi, yəni bunlar xörəklərində müstəqildirlər, özgəsinin yeməyinə ehtiyacları yoxdur. Çünki ov bunların əlindən qurtula bilməz. Onlar ovu istədikləri zaman yeyə bilərlər. Buna görə bu vilayət “خُذْخُرْ -Xudzxur” adlandı. Sonra (خ - x) hərfi əlifə (اُ – u) çevrilmiş; belə çevrilmə hadisəsi boğaz hərflərində əmələ gəlir. Bəzi boğaz hərfi bəzisinin yerinə keçir. Xüsusən, (خ - x) əlifə və əlif (اُ – u) də (خ - x)-ya çevrilir. Kitabın sahibi Mahmud deyir: Bu cəhətdən bizim əmir olan babalarımız “خَمِيرْ – xəmir” adlanırdılar: çünki oğuzlar “اَمِيرْ – əmir” deyə bilmədiklərindən (ا - əlif)-i (خ - x) hərfinə çevirərək “خَمِيرْ – xəmir” demişlər.

Türk ölkəsini Samani sülaləsi əlindən qurtaran babamız “بَحَرْكِينْ - Bəhar-kin” adlanırdı. Sonra (ا - ə) (خ - x) hərfinə çevirmişlər. Necə ki, uyğur sözündə sənə göstərdim. (خ -x) (ا - ə)-yə çevirəndən sonra “خُذْ” (xudz) kəlməsindəki (ذ -dz) hərfini (ي - y) hərfinə çevirmişlər (ذ - dz) hərfini (ي - y) hərfinə çevirmək ümumi bir qaydadır. Bundan sonra da “خُرْ” kəlməsində olan (خ -x)-nı (غ - ğ)-ya çevirmişlər. (خ - x) hərfini (غ - ğ) hərfinə və (غ - ğ)-ni (خ - x)-ya çevirmək caizdir. Necə ki, (ərəbcədə) “خَطَرَ” (xatərə) sözündə “غَدَرَ” (ğadərə) deyilir. [103] Bu vilayət beş şəhərdir. Əhalisi kafirlərin ən möhkəmi və ən yaxşı atıcısıdır. O şəhərlərdən biri “سُلمِى – Sülmi” dir ki, bunu Zülqərneyn bina etmişdir. Sonra “قُوجُو – Qoço”, sonra “جَنْبَلِقْ – Çanbalıq”, sonra “بيشْ بَلِقْ – Bişbalıq”, sonra “يَنْكي بَلِقْ – Yaŋıbalıq” dır (6).

Areal dilçilik dillərin, dialektlərin və dil (dialekt) hadisələrinin yayılmasını, qarşılıqlı təsirini və inkişafını öyrənən dilçilik bölməsidir.

Əsas anlayışı *areal* – dil hadisəsinin və ya bu cür hadisələr kompleksinin, dialektin, dilin və ya ümumi mənşəyinin, struktur oxşarlığı ilə əlaqəli dil qrupunun yayılma ərazisidir. Arealın xətti isoqloss adlanır. Dialekt, dil və ya yaxın dillər qrupu bir qrup isoqlosla müəyyən olunur. M.Kaşğari dil hadisələrinin areallarını müəyyən edərək, məlum faktların müqayisəsi əsasında dil coğrafiyasının diaxron və sinxron aspektini əhatə edən dillərin qarşılıqlı əlaqələrini, dinamikasını öyrənmiş, məlum faktları rekonstruksiya etmiş və türk dilləri arasında sərhədlərin olmadığını əsslandırmışdır.

ƏDƏBİYYAT

1.Махпиров В.У. Имена далеких предков. Алматы: Институт востоковедения АН РК, 1997.

2. Умняков И.И. Самая старая турецкая карта мира // Труды Самаркандского госпединститута. Вып. 1. Самарканд, 1940.

3. Крачковский И.Ю. Ал-Бируни и географы в XI в. на Востоке // Избранные произведения. Т. IV. М.—Л.: Наука, 1957.

4. Щербак А.М. Грамматический очерк языка тюркских текстов X—XIII вв. из Восточного Туркестана. М.—Л.: АН СССР, 1961.

5. Хасанов Х. Географическое наследие ученых Средней Азии: автореф. ... док. дис. Ташкент: Фан, 1967.

6. M.Kaşğari. “Dinü lüğat-it-türk”. Xalid Səid tərcüməsində (Tərtibçi, ön sözün m və şərhlərin müəllifi prof. Nadir Məmmədli). Bakı, “Elm və təhsil”, 2024.

7. Егеубай А. Махмұт Қашқари «Диуани лұғат-ит-түрік» (XI ғ.) Алматы: Хант, 1997. Т. 1.

8. Ətraflı bax: Досмухамедулы Х. Диуани лугат ат турк // Таңдамалы. Алматы: Ана тт. 1998.

9. https://www.researchgate.net/publication/318074496_
Mahmud_Kashgari_-_the_founder_of_areal_linguistics

10. Мусабаев Г.Г. Некоторые сведения о жизни М. Кашгарского // Исследования по тюркологии. Алматы: Наука, 1969.

11. ХасановХ. Географическое наследие ученых Средней Азии: автореф. ... док. дис. Ташкент: Фан, 1967.

12. Ahmet Caferoğlu. Kaşğarlı Mahmud. Milli Egitim Basımevi. İstanbul, 1970.

13. В.У.Махрипов. «Дивану лугат-ит-турк» Махмуда Кашгарского и вопросы тюркской топонимики // Тюркская ономастика. Алма-Ата, «Наука», 1984; həmçinin bax: Arif Rəhimoğlu. Dilimiz və tariximiz. Bakı, “Elm və təhsil”, 2022.

14. H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri. Bakı, Azərbaycan EA nəşri, 1962.

15. Ətraflı bax: Z.Bünyatov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, “Şərq-Qərb”, 2007.

16. Arif Rəhimoğlu. Dilimiz və tariximiz. Bakı, “Elm və təhsil”, 2022.

MAP OF MAHMUD KASHGARİ AND AREAL LİNGUİSTİCS

SUMMARY

In the field of linguistic geography, the term areality is used to describe the distribution area of a linguistic phenomenon or a complex of such phenomena. This can include a dialect, a language or a common origin, or a language group related by structural similarity. Mahmud Kashgari identified the geographical distribution of language phenomena and investigated the interrelationships and dynamics of languages, encompassing both diachronic and synchronic aspects of language geography. This was achieved through a process of comparison between known facts. In the “Divan” the initial thematic world map is presented in the form of a circle, symbolizing the Earth. Ethnolinguistic research is conducted, including the territories inhabited by Turkic generations and tribes, as well as the socio-geographical characteristics of these regions. The investigation of pure and mixed Turkic languages, along with the areal classification of Turkic languages, has led to the determination of the characteristics of language areas, the boundaries of their distribution, and the language contacts of isoglosses, dialects, and areal combinations.

Keywords: *circular map, Turkic tribes, areal linguistics, isoglosses, geographical names,linguistic phenomena.*

КАРТА МАХМУДА КАШГАРИ И АРЕАЛЬНАЯ ЛИНГВИСТИКА

АННОТАЦИЯ

В лингвистической географии термин ареальность используется для описания ареала распространения языкового явления или комплекса таких явлений. Это может быть диалект, язык или язык общего происхождения, или языковая группа, связанная структурным сходством. Махмуд Кашгари определил географическое распространение языковых явлений и исследовал взаимосвязи и динамику языков, охватывая как диахронический, так и синхронический аспекты языковой географии. Это достигалось путем сопоставления известных фактов. В «Диване» первоначальная тематическая карта мира представлена в виде круга, символизирующего Землю. Проводится этнолингвистическое исследование, включающее территории, заселенные тюркскими родами и племенами, а также социально-географические характеристики этих регионов. Исследование чистых и смешанных тюркских языков, а также ареальная классификация тюркских языков позволили определить характеристики языковых ареалов, границы их распространения, а также языковые контакты изоглосс, диалектов и ареальных сочетаний.

Ключевые слова: *круговая карта, тюркские племена, ареальная лингвистика, изоглоссы, географические названия,языковые явления.*